# QARABAĞ AZƏRBAYCANDIR

# Qarabağ – mədəniyyətimizin beşiyi...

## Mədəni irsimizi tanıyaq və tanıdaq



Gəncəsər monastr kompleksi

Sentyabrın 27-dən başlayan Vətən müharibəsi noyabrın 10-da Azərbaycanın tarixi qələbəsi ilə yekunlaşdı. İşğalçı Ermənistan ordusu 44 günlük müharibə nəticəsində biabırçı məğlubiyyətlə üzləşdi və doğma Qarabağımız düşmənlərdən təmizləndi.

Torpaqlarımızla bərabər xalqımızın qədim mədəni irsini özündə əks etdirən bəzi tarix-mədəniyyət, dini abidələrimiz, qəbiristanlıqlarımız da öz azadlığına qovuşdu. Lakin əksər məzarlıqlar, türbələr, məzarüstü abidələr, məscidlər, məbədlər, Qafqaz Albaniyasına məxsus abidələr və digər milli abidələrimiz düşmən tərəfindən tamamilə məhv edilib.

Qeyd edək ki, Azərbaycan Prezidentinin müvafiq fərmanına əsasən azad olunmuş torpaqlarda müvəqqəti inzibati idarəetmə komendaturaları yaradılıb. Mədəniyyət Nazirliyi də onların tərkibinə daxil edilib. Beş rayon üzrə fəaliyyət göstərən komendaturalarda Mədəniyyət Nazirliyinin hər rayon üzrə təhkim olunan nümayəndələri var. Nümayəndələr artıq öz işlərinə başlayıblar. Onların missiyası azad olunmuş torpaqlarda mədəniyyət müəssisələrinin, tarixi abidələrin vəziyyətinin öyrənilməsi və mühafizəsinin təmin edilməsindən ibarətdir. Aparılmış monitorinqlərin ilkin nəticələrinə əsasən, bu rayonlarda 151 mədəniyyət müəssisəsi, o cümlədən 72 kitabxana, 62 mədəniyyət evi və klub, 8 muzey, 9 uşaq musiqi məktəbinin olduğu dəqiqləşdirilib. Sözügedən müəssisələrin hamısı dağıdılmış vəziyyətdədir. Monitorinqlər zamanı 67 tarixi abidə aşkar edilib ki, 34-ü işğalçılar tərəfindən tamamilə dağıdılıb. Onların arasında ölkə əhəmiyyətli abidələr də var. Xudafərin körpüləri, Xocavənd rayonunda olan Qırmızı Alban məbədi, Hadrutda yerləşən digər Alban məbədi, Zəngilandakı Qız qalası və Məmmədbəyli kəndində olan Səkkizguşəli türbə, Füzulinin Qarğabazar kəndindəki Karvansaray, bir sıra rayonlarımızda olan XVIII əsrə aid məscidlərimiz ya dağıdılıb, ya da ev heyvanları üçün tövlələrə çevrilib. Bu, nəinki beynəlxalq hüquqa, həm də insani dəyərlərə, İslama zidd bir fəaliyyətdir. Eyni zamanda, UNESCO-nun 1954-cü və 1970-ci illərdə qəbul etdiyi konvensiyaların pozulmasıdır.

Vəziyyəti nəzərə alaraq, Mədəniyyət Nazirliyi artıq bir müddətdir ki, yeni layihəyə başlayıb. “Qarabağ – mədəniyyətimizin beşiyi” adlı layihə Ermənistanın Azərbaycana qarşı təcavüzü nəticəsində işğal edilmiş ərazilərdə dağıdılan, talan edilən mədəniyyət ocaqları, abidələr, tarixi-memarlıq nümunəsi olan tikililər, Azərbaycan xalqının Qarabağda saxtalaşdırmaya və mənimsənilməyə məruz qalan zəngin mədəni irsi ilə bağlı həqiqətlərin beynəlxalq səviyyədə ictimailəşdirilməsi məqsədilə həyata keçirilir. Layihə çərçivəsində mədəni irsimizə qarşı vandalizm aktları, əzəli yurd yerlərimizdəki abidələr, tarixi həqiqətlərin yerli və dünya ictimaiyyətinin diqqətinə çatdırılması üçün hazırlanan məlumatlar müxtəlif dillərdə qlobal internet məkanında, o cümlədən sosial şəbəkələrdə yayılır.

Layihə başlayandan 50-dək mədəni irs nümunəmiz haqqında məlumatlar geniş oxucu kütləsinə çatdırılıb. Həmin məlumatların bir hissəsini bu, digərlərini isə növbəti saylarımızda sizə təqdim edəcəyik.



Hacıqululların malikanəsi

## “Qarabağ – mədəniyyətimizin beşiyi”: Xudafərin körpüləri

Cəbrayıl rayonu ərazisində Araz çayının şimal və cənub sahillərini birləşdirən iki Xudafərin körpüsü var. Tarixi İpək yolu üzərində yerləşən 11 tağlı Xudafərin (inv. 12) XI-XII əsrlərdə, 15 tağlı Xudafərin (inv. 13) körpüsü isə XIII əsrdə inşa olunub.

1993-cü ildə Cəbrayılın Ermənistan tərəfindən işğalından sonra Xudafərin körpüləri dağıntılara məruz qalıb.


Xudafərin körpüləri

## “Qarabağ – mədəniyyətimizin beşiyi”: Şuşa qalası

Şuşa qalası Azərbaycanın Şuşa şəhərini əhatə edən qala divarlarıdır.

Qarabağ xanı Pənahəli xan Bayat qalası və Şahbulaq qalasının əlverişsiz coğrafi mövqeyini nəzərə alaraq 1750-ci ildə Şuşa qalasının bərpa edilməsi haqqında qərar verir və Qarabağ xanlığının mərkəzi bura köçürülür. Qala bərpadan sonra uzun müddət mənbələrdə Pənahabad adlandırılır.

Şuşa qalası Azərbaycan memarlığının ən gözəl incilərindən biridir. Qala Arran memarlıq məktəbi üslubunda inşa edilib, üç qapısı var. Onlardan Gəncə qapısı öz yüksək memarlıq xüsusiyyətləri ilə seçilir. Qala dairəvi mühafizə bürclərinə malikdir. Yaxınlıqda qalanı xarici aləmlə əlaqələndirən yüksək memarlıq keyfiyyətli körpü də inşa edilib ki, Qala körpüsü olaraq tanınır.



Şuşa qalası

## “Qarabağ – mədəniyyətimizin beşiyi”: Xurşidbanu Natavanın evi

Azərbaycanın görkəmli şairəsi, “Xan qızı” adı ilə el arasında tanınan Xurşidbanu Natəvana məxsus ikimərtəbəli ev Şuşa şəhərində yerləşən XVIII əsrə aid tarix-memarlıq abidəsidir.

1930-cu illərin əvvəllərində Azərbaycan vokal sənətinin banisi Bülbülün təşəbbüsü ilə Azərbaycanda yaradılan ilk uşaq musiqi məktəbi olan Şuşa Musiqi Məktəbi bu binada fəaliyyətə başlayıb. 1984-cü ildən məktəb Şuşa şəhər Niyazi adına Uşaq İncəsənət Məktəbi adlandırılıb.

1987-ci ildə binada əsaslı təmir və bərpa işləri aparıldıqdan sonra Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin Xurşidbanu Natəvan adına Qarabağ filialı burada fəaliyyətə başlayıb.

1992-ci il may ayının 8-də Şuşa şəhəri Ermənistan Respublikasının silahlı qüvvələri tərəfindən işğal edildikdən sonra muzeydə toplanmış yüzlərlə nadir sənət incisi, rəsm əsərləri, xalçalar, miniatürlər, xatirə əşyaları, arxeologiya nümunələri işğalçılar tərəfindən dağıdılaraq qəsb edilib.


Xurşidbanu Natəvanın evi

## “Qarabağ – mədəniyyətimizin beşiyi”: Azıx mağarası

Dünya əhəmiyyətli arxeoloji abidə olan Azıx mağara düşərgəsi (inv. 22) Xocavənd rayonunun Azıx kəndində, Tuğ çökəkliyində, Quruçayın sol sahilində yerləşir. Burada tapılan qədim insana məxsus alt çənə sümüyünün 350-400 min il yaşı var. Azıx mağarasında çənə sümüyündən başqa, qədim insanlara məxsus müxtəlif alətlər və ocaq izləri də aşkarlanıb.

Ərazi Ermənistan tərəfindən işğal edildikdən sonra mağarada dəfələrlə qanunsuz arxeoloji qazıntı işləri aparılıb.

Son dövrlər Ermənistan silahlı qüvvələri tərəfindən silah anbarı kimi istifadə olunub.

## “Qarabağ – mədəniyyətimizin beşiyi”: Məmmədbəyli türbəsi

Zəngilan rayonunun Məmmədbəyli kəndində yerləşən və səkkizguşəli prizmadan ibarət olan türbə Məhəmməd əl-Hacın oğlu Yəhyanın şərəfinə 1305-ci ildə inşa edilib.

Binanın memarı və bənnası XIV əsrdə İpək yolu üzərindəki abidələri yaratmış Əli Məcdəddindir.

## “Qarabağ – mədəniyyətimizin beşiyi”: Saatlı məscidi

Şuşa şəhərinin “Saatlı” məhəlləsində yerləşən tarixi məscid 1883-cü ildə memar Kərbəlayi Səfixan Qarabaği tərəfindən inşa edilib.

Məscidin tikildiyi yerdə əvvəl böyük Azərbaycan şairi Molla Pənah Vaqifin dərs keçdiyi bir-birinə bitişik mədrəsə və məscid binaları olub. 1992-ci il may ayının 8-də Şuşa şəhəri Ermənistan tərəfindən işğal olunduqdan sonra məscid xarabalığa çevrilib, zəngin interyeri tamamilə, minarəsi isə qismən dağıdılıb.

## “Qarabağ – mədəniyyətimizin beşiyi”: Gəncəsər monastr kompleksi

Elmi ədəbiyyatda Xəznədağ məbədi adı ilə tanınan Gəncəsər monastr kompleksi Azərbaycanın Kəlbəcər rayonu ərazisində yerləşir. Monastrın əsas tikililəri XIII əsrdə inşa edilib.

1993-cü ildə Ermənistan silahlı qüvvələri tərəfindən Kəlbəcər


Azıx mağarası

rayonu işğal edildikdən sonra Gəncəsər monastrı "Qanzasar" erməni monastr kompleksi kimi dünyaya təqdim edilməkdədir.

"Qarabağ – mədəniyyətimizin beşiyi": Həmzə Soltan sarayı

Həmzə Soltan sarayı Laçın rayonunun Hüsülü kəndində yerləşir. 1761-ci ildə tikilməsi ehtimal edilən sarayın inşasında Şərq memarlıq ənənələrindən geniş istifadə edilib.

Laçın rayonunun Ermənistan silahlı qüvvələri tərəfindən işğalından sonra kəndin adı dəyişdirilib, Həmzə Sultan sarayı isə təmir edilərək qonaq evi kimi istifadəyə verilib.


Məmmədbəyli türbəsi


Saatlı məscidi

## "Qarabağ – mədəniyyətimizin beşiyi": Hacı Bədəl körpüsü

Qubadlı rayonunun Dəmirçilər kəndində yerləşən tağsız körpü XIX əsrdə Hacı Bədəl tərəfindən Ağa çayı üzərində tikilib. Körpünün inşasında put daşdan (xüsusi bəzək vurmaqla) əhəng və yumurta sarısından istifadə olunub. Bu körpü 15 kəndin Qubadlı rayonunun mərkəzi ilə əlaqəsini bərpa edib. Körpünün son dərəcə maraqlı memarlığı var. Belə ki, körpü kükrəyən, yaz gələndə yerə-göyə sığmayan, hər an kükrəyib daşan dağ çayının (Ağa çayı) üstündə salındığından tağbənd formasında idi. Ortasında dayaqlar qoyulmamasında məqsəd dəlisov dağ çayının maneəsiz axını üçün idi.

Tarixi abidə 31 avqust 1993-cü ilə qədər olduğu kimi qalırdı.


Hacı Bədəl körpüsü


Köçərli məscidi

## "Qarabağ – mədəniyyətimizin beşiyi": Köçərli məscidi

Köçərli məscidi Şuşa şəhərində yerləşən XIX əsrə aid memarlıq abidəsidir. Bəhmən Mirzənin saray kompleksinə aid olan tarixi məscid XIX əsrin sonlarında Şuşada fəaliyyət göstərən on yeddi məsciddən biri idi.

Məscid 1992-ci ilin mayında Şuşa şəhərinin Ermənistan silahlı qüvvələri tərəfindən işğalından sonra vandallar tərəfindən yandırılıb və dağıdılıb.


Gürcülü türbəsi

## "Qarabağ – mədəniyyətimizin beşiyi": Gürcülü türbəsi

Gürcülü türbəsi Qubadlı rayonunun Gürcülü kəndi ərazisində yerləşən XVIII əsrə aid tarixi-memarlıq abidəsidir. Bir sıra xüsusiyyətlərinə görə Gürcülü türbəsi Azərbaycanın səkkizguşəli türbələri arasında unikal mövqeyə malikdir. Türbənin diqqətçəkən xüsusiyyəti onun əsas memarlıq kütləsindən çadır formalı dam örtüyünə keçid hissəsidir. Bu, türbəyə təkrarolunmaz görünüş bəxş edib.


Məmər kənd məscidi

## "Qarabağ – mədəniyyətimizin beşiyi": Məmər kənd məscidi

Qubadlı rayonuna aid Məmər kənd məscidi XVIII əsrdə inşa edilib. Sovet hakimiyyəti dövründə anbar binası kimi istifadə olunan məscid Azərbaycanın dövlət müstəqilliyindən sonra bərpa edilərək öz əvvəlki funksiyasını yerinə yetirib.

1993-cü ildə Qubadlı rayonu Ermənistan Respublikasının silahlı qüvvələri tərəfindən işğal edildikdən sonra məscid tamamilə dağıdılıb.


Şahbulaq qalası


Ağoğlan məbədi

## "Qarabağ – mədəniyyətimizin beşiyi": Şahbulaq qalası

Şahbulaq qalası (qəsri) Ağdam şəhəri yaxınlığında 1750-1752-ci illərdə Qarabağ xanı Pənahəli xanın istəyi ilə inşa olunub.

Ağdam rayonunun işğalından sonra Şahbulaq qalası ən çox erməniləşdirilməyə məruz qalan abidələrimizdən biridir.

İşğal dövründə qala bərpa edilərək kilsə kimi istifadəyə verilib.


Lalazar körpüsü

## "Qarabağ – mədəniyyətimizin beşiyi": Ağoğlan məbədi

Ağoğlan məbədi V-VI əsrlərə aid alban monastrıdır. Abidə inşaat kitabəsinə malik deyil, lakin memarlıq xüsusiyyətlərinə əsasən onun üç əsas inşaat mərhələsi keçdiyi güman edilir. İlkin mərhələdə sadə düzbucaqlı formaya malik apsidasız bazilika olub.

Laçın rayonunun 1992-ci ildə Ermənistan tərəfindən işğalından sonra «Cicernavank» adlandırılan abidənin memarlıq quruluşunda və interyerində də dəyişikliklər edilib.

## "Qarabağ – mədəniyyətimizin beşiyi": Laləzar körpüsü

Laləzar körpüsü Qubadlı rayonu Əliquluuşağı kəndindən keçən Bərguşad çayı üzərində 1867-ci ildə salınıb. Lakin bəzi mənbələr körpünün daha əvvəl, XVIII əsrdə tikildiyini bildirirlər. Abidə bir tağlı olub alt hissəsi oval, yuxarı hissəsi düz formalıdır. Azərbaycanda bir çox tarixi körpülər kimi dayaq üçün təbii qayalardan istifadə edilib. Laləzar körpüsünün eni 2,8 metr, su səthindən hündürlüyü 4,5 metrdir.

## "Qarabağ – mədəniyyətimizin beşiyi": Xocalı türbəsi

XIV əsrə aid abidələrdən biri də Xocalı kurqanları sahəsində, yonulmuş ağ daşlardan tikilmiş Xocalı abidəsidir. Qarabağın qülləvari türbələr qrupuna daxil olan bu türbə yerli daşla tikilib üzəri yaxşı cilalanmış plitələrlə üzlənmişdi. Lakin hələ sovet dövründə Qarabağın digər abidələri kimi bu abidənin də üzlük daşlarını ermənilər qaşıyıb tökmüş və onun xarici görünüşünü qeyri-adi şəkilə salmışdı. 1992-ci il fevralın 26-da rayon ermənilər tərəfindən viran qoyulduqdan sonra digər abidələrimiz kimi Xocalı türbəsi də dağıdılıb. Abidənin hazırkı vəziyyəti ilə bağlı hələlik dəqiq məlumat yoxdur.

## "Qarabağ – mədəniyyətimizin beşiyi": Xubyarlı türbələri

Cəbrayıl rayonunun Xubyarlı kəndində memarlıq üslubuna görə orta əsr tarixində özünəməxsus yer tutan XV əsrə aid «Dairəvi» türbə və XVI əsrə aid səkkizguşəli türbə sovet dövründə xüsusi təmir-bərpa briqadası tərəfindən tam bərpa olunub.

Lakin bu tarixi abidələr 1993-cü ildə Cəbrayıl rayonunun işğalı zamanı erməni vandalları tərəfindən yerlə-yeksan edilib.

## "Qarabağ – mədəniyyətimizin beşiyi": Varazqun məbədi

Varazqun məbədi Laçın rayonu ərazisində yerləşən qədim alban abidəsidir. Abidə II-V əsrlərdə Qafqaz Albaniyası dövründə inşa edilib və dövrümüzə xarabalıqları qalıb.

Məbədin ətrafında Varazxan adlanan kəndin xarabalıqları da var. Ehtimal ki, məbədin ilk adı da elə Varazxan və ya Varazqun olub.

Yüksək dağlıq məkanda inşa edilən məbədin ərazisində VII əsrə aid qədim alban qəbiristanlığının qalıqları, həmçinin XVI əsrdə kəsilmiş Səfəvi dövlətinə aid sikkələr tapılıb.

## "Qarabağ – mədəniyyətimizin beşiyi": Qarğabazar məscidi

Məscid Füzuli rayonunun Qarğabazar kəndində yerləşir. El arasında Şah Abbas məscidi, elmi ədəbiyyatlarda Hacı Qiyasəddin məscidi kimi öz əksini tapıb. Çünki məscidin qapı çatı üzərindəki kitabədə aydınca yazılıb: "Bu məscidi Böyük Allahın mərhəmətli bəndəsi Hacı Qiyasəddin tikdirib, hicri təqvim ilə 1095". Miladi tarixlə 1683-84-cü illərə uyğundur.

Məscid kəndin mərkəzindəki sal qayalı təpənin üstündə inşa edilib. Onunla eyni dövrdə tikilən karvansara isə həmin təpənin cənubunda yerləşir. Karvansara və məscid konstruksiyasının memarlıq təhlili hər iki abidənin eyni memar tərəfindən tikildiyini söyləməyə imkan verir.

1993-cü ildə Füzuli rayonu Ermənistan silahlı qüvvələri tərəfindən işğal edildikdən sonra məscid dağıdılıb.

## "Qarabağ – mədəniyyətimizin beşiyi": Üzeyir Hacıbaylinin Şuşadakı ev-muzeyi

Azərbaycan professional musiqi sənətinin banisi, müsəlman Şərqində ilk operanın müəllifi, görkəmli musiqişünas-alim, pedaqoq, ictimai xadim Üzeyir Hacıbəylinin Şuşa şəhərində uşaqlıq illərini keçirdiyi evdə 1959-cu ildə ev-muzeyi yaradılıb. Mədəniyyət Nazirliyi, Elmlər Akademiyası, Azərbaycan Tarixi Muzeyinin dəstəyi ilə fəaliyyətə başlayan muzeyin ekspozisiyasında bəstəkarın ilk yaradıcılıq illərinə aid əşyalar, əsərlərinin əlyazmaları, digər eksponatlar, həyat və yaradıcılığını əks etdirən fotoşəkillər nümayiş etdirilirdi. 1975-ci ildə dahi bəstəkarın Bakı şəhərində ev-muzeyi açılandan sonra da Şuşadakı muzey Üzeyir irsini yaşadan mədəniyyət ocağı kimi fəaliyyətini davam etdirib.


Xocalı türbəsi


Xubyarlı türbələri


Varazqun məbədi


Qarğabazar məscidi


Üzeyir Hacıbəylinin Şuşadakı ev-muzeyi


Əsgəran qalası


Şərifan məqbərəsi




























Bəstəkarın anadan olmasının ildönümləri, yubileyləri muzeydə mütəmadi olaraq dövlət səviyyəsində qeyd olunub. 1985-ci ildə Üzeyir Hacıbəylinin 100 illik yubileyi UNESCO tərəfindən geniş qeyd olunub, dünyanın bir çox ölkələrindən gəlmiş qonaqlar dahi bəstəkarın Şuşadakı ev-muzeyini ziyarət edib, burada böyük yubiley tədbirləri keçirilib.

1992-ci ilin mayında Şuşa şəhərinin Ermənistan silahlı qüvvələri tərəfindən işğalından sonra muzey fəaliyyətini dayandırdı. İşğal öncəsi muzeyin eksponatlarının – bəstəkara məxsus əşyaların düşmən əlinə keçməsinə yol verilmədi və hazırda Ü.Hacıbəylinin Bakıdakı ev-muzeyində saxlanılır.

Üzeyir bəyin xatirəsini yaşadan bu dəyərli eksponatların dahi bəstəkarın doğma şəhərinə, evinə qayıdacağı, Şuşadakı ev-muzeyinin bərpa olunaraq fəaliyyətə başlayacağı günə isə az qalıb.

## "Qarabağ – mədəniyyətimizin beşiyi": Əsgəran qalası

Azərbaycan ərazisi müdafiə məqsədilə tikilən istehkam və qalalarla zəngindir. Bunlardan biri də Əsgəran qalasıdır. XVIII əsrdə Qarabağ xanı Pənahəli xanın göstərişi ilə inşa edilən qala memarlığımızın parlaq nümunələrindəndir.

Qalanın tikilməsi Qarabağ xanlığının yüksəliş dövrü ilə əlaqəli olub. Əsgəran qalası Şuşanın təxminən 24, Xocalının 5 kilometrliyində və Ağdam şəhərinin 12 km cənubunda, Qarqarçayın sağ və sol sahillərindəki dağ döşündə yerləşir.

1992-ci ildə Xocalı şəhərinin işğalından sonra qala dağıntılara məruz qoyulub.

Bir neçə il öncə Ermənistan Əsgəran qalasında qanunsuz "bərpa-tikinti" işlərinə başlayıb. İnternet resurslarında yayılan görüntülərdə "bərpa-tikinti" işləri qalanın simasını tamamilə dəyişməyə hesablanıb. Tarixi tikilinin memarlıq üslubu dəyişdirilib, tikinti aparılan ərazidə dərin çalalar əmələ gəlib. Ermənistan Əsgəran qalasını özününküləşdirmək məqsədilə tarixi abidənin görkəminə ciddi zərər vurub.

## "Qarabağ – mədəniyyətimizin beşiyi": Şərifan məqbərəsi

Tarixi abidə Zəngilan rayonunun Şərifan kəndində, Həkəri çayının sağ sahilində yerləşir. Qədim türbənin ancaq alt hissəsinin – sərdabəsinin qalıqları dövrümüzə qədər gəlib çatıb. Türbənin üst hissəsi dağılmışdır.

Şərifan sərdabəsi XIII-XIV əsrlərin qovşağında tikilmiş abidə hesab edilir.

## "Qarabağ – mədəniyyətimizin beşiyi": Qutlu Musa türbəsi

Qutlu Musa türbəsi Ağdam rayonunun Xaçındərbətli kəndində yerləşir. Xaçındərbətli abidəsinin giriş qapısı üzərindəki kitabə onun 1314-cü ildə ustad Şahbənzər tərəfindən Musa oğlu Kutlunun məzarı üzərində tikildiyini göstərir.

## "Qarabağ – mədəniyyətimizin beşiyi": Şalva sövməəsi

Şəlvə sövməəsi Laçın rayonunun Şəlvə kəndində XV əsrə aid edilən sövməə tipli alban məbədləri sırasına daxildir.

Sözügedən tarixi abidənin taleyi haqqında hazırda dəqiq məlumat yoxdur.

## "Qarabağ – mədəniyyətimizin beşiyi": Azərbaycan Milli Xalça Muzeyinin Şuşa filialı

Azərbaycan Milli Xalça Muzeyinin Şuşa filialı 1987-ci il mayın 19-da Şuşa şəhərində, XVIII əsrin tarixi-memarlıq abidəsi sayılan Mehmandarovların malikanəsində fəaliyyətə başlayıb.

Qarabağ torpağı Ermənistan tərəfindən işğala məruz qaldığı üçün filialdakı daşınması mümkün olan eksponatlar Bakıya gətirilib.

Həmin vaxtdan etibarən xilas olunmuş eksponatlar Azərbaycan Milli Xalça Muzeyinin ekspozisiyasında nümayiş etdirilir və muzeyin fondunda qorunub saxlanılır.

## "Qarabağ – mədəniyyətimizin beşiyi": Sarı Aşığın Xatirə Muzeyi

1989-ci ildə Laçın rayonunun Güləbird kəndində XVII əsrdə yaşamış bayatı ustadı Sarı Aşığın xatirə muzeyi istifadəyə verilib. Xatirə muzeyinə Sarı Aşıqla bağlı 150 əşya bağışlanılıb və abidəsi ucaldılıb.

Muzeyin əsas fəaliyyət növü əslən Güləbird kəndindən olan Sarı Aşığın dillər əzbəri bayatılarının, deyimlərinin itib-batmaması və gələcək nəsillərə çatdırılması üçün çalışmaq olub.

1992-ci ildə Ermənistan Silahlı Qüvvələri tərəfindən Laçın rayonunun iş-

ğal edilməsi nəticəsində muzeyin binası və 200-ə yaxın eksponatı talan olunub.

### "Qarabağ – mədəniyyətimizin beşiyi": Hacıqululların malikanəsi

Hacıqululların malikanəsi (inv. 341) Şuşa şəhərinin mərkəzi hissəsində yerləşir. Bu üçmərtəbəli bina həm eksteryer, həm də interyerində bütün təmtəraqlı malikanələr kimi milli memarlıq üslubunu özündə əks etdirir. Malikanənin təməli 1849-cu ildə tacir Qulu Məhəmmədəli oğlu tərəfindən qoyulub.

Şuşa şəhərinin 1992-ci ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğalı zamanı Hacı Qululların malikanəsi top atəşinə tutularaq divarları dağıdılıb.

Hazırda malikanənin yalnız xarici divarlardan ibarət xarabalığı qalıb.

### "Qarabağ – mədəniyyətimizin beşiyi": Ağdam Cümə məscidi

Ağdam Cümə məscidi (inv. 202) 1868-1870-ci illərdə tikilib. Memarı Kərbəlayi Səfixan Qarabaği olan məscidin iki minarəsi var. Məscid binası daşdan, binanın fasad hissəsinin künclərindən ucalan minarələr isə kərpicdən hörülüb.

1993-cü ildə Ermənistan Respublikasının silahlı qüvvələri tərəfindən işğal edildikdən sonra digər tarixi abidələrimiz kimi Ağdam Cümə məscidi də yandırılıb, ciddi dağıntılara məruz qoyulub.

Məscidin bugünkü vəziyyəti UNESCO-nun 1954-cü ildə qəbul edilmiş "Silahlı münaqişə zamanı mədəni mülkiyyətin müdafiəsi haqqında" Haaqa Konvensiyasının Ermənistan Respublikası tərəfindən pozulduğunu bir daha nümayiş etdirir.

### "Qarabağ – mədəniyyətimizin beşiyi": Molla Pənah Vaqifin muzey-məqbərə kompleksi

1982-ci ilin yanvar ayında məşhur Azərbaycan şairi və ictimai-siyasi xadimi Molla Pənah Vaqifin Şuşada yerləşən muzey-məqbərə kompleksinin açılışı olub.

Kompleks Şuşa şəhərinin ən səfalı yeri sayılan Cıdır düzünə yaxın bir ərazidə - dahi şairin məzarı üzərində inşa edilib. Burada M.P.Vaqifin Şuşa həyatını əks etdirən dövrlərə aid 80-ə yaxın eksponat da nümayiş olunurdu.

1992-ci ilin may ayında Ermənistan silahlı qüvvələri tərəfindən Şuşa şəhərinin işğalı nəticəsində kompleksin binası və burada sərgilənən onlarla eksponat məhv edilib, daşınması mümkün olanlar isə Ermənistana aparılıb.



Molla Pənah Vaqifin muzey-məqbərə kompleksi: işğaldan əvvəlki və işğaldan sonrakı vəziyyəti

### "Qarabağ - mədəniyyətimizin beşiyi": Qırmızı monastr

Kəlbəcər rayonunun Qozlu kəndində yerləşən tarixi abidə 1224-cü ildə inşa edilib. Alban xristianlıq memarlığına aid olan abidə kompleksi kilsədən, narteksdən, sovmədən və digər tikililərdən ibarətdir.

1993-cü ildən Ermənistanın işğalı altında idi və məhv olmaq üzrədir.

### "Qarabağ – mədəniyyətimizin beşiyi": Lex qalası

Lex qalası 1993-cü ildə erməni təcavüzünə məruz qalan Kəlbəcər rayonu Qanlıkənd kəndinin ərazisində yerləşir.

Uca dağ zirvəsində inşa edilən qala XIII-XIV əsrlərdə müdafiə məqsədilə tikilib.

### "Qarabağ – mədəniyyətimizin beşiyi": Xudavəng monastr kompleksi

Kəlbəcər rayonunun Vəng kəndi ərazisində, Tərtərçayın sol sahilində yerləşən Xudavəng, ya da Dədəvəng kompleksi Azərbaycanın xristian memarlığının ən iri və ən gözəl abidələrindən biridir.



Xudavəng monastr kompleksi

Xudavəng monastr kompleksində çoxlu inşaat kitabələri və yazılar qalıb. Onlarda göstərilən bir sıra adlar: Arzu xatun, Tursun, Seyti, Həsən, Avaq, Şəms, Altun, Ağbux, Qaragöz və s. bu abidəni ucaldanların etnik mənsubiyyətinin – türklüyünün dəqiq göstəricilərindən sayılmalıdır.

27 ildir ki, Xudavəng monastr kompleksi dünyaya erməni abidəsi kimi təqdim edilməkdədir.

### "Qarabağ – mədəniyyətimizin beşiyi": Dəmirovlu pir məbədi

Qafqaz Albaniyasının maddi-mədəni irsinə aid abidə Laçın rayonunun Qarqışlaq kəndində yerləşir və XI əsrə aiddir.

Ərazinin işğalından sonra abidənin hazırkı vəziyyəti məlum deyil.

### "Qarabağ – mədəniyyətimizin beşiyi": Beşikdağ kilsəsi

Beşikdağ kilsəsi Ağdam rayonunun Beşikdağ dağında yerləşir. Qafqaz Albaniyası memarlığı üslubunda olan kilsə IV-VII əsrlərə aid edilir.

### "Qarabağ – mədəniyyətimizin beşiyi": Şıxlar türbəsi

Şıxlar türbəsi (Dairəvi türbə) Cəbrayıl rayonunun Şıxlar kəndi yaxınlığında yerləşir. Türbənin yuxarı hissəsi 1993-cü ildə erməni işğalı zamanı dağıdılıb.

### "Qarabağ – mədəniyyətimizin beşiyi": Mirəli türbəsi

Mirəli türbəsi Füzuli rayonunun Aşağı Veysəlli kəndində təpə üzərində ucalan qülləvarı türbədir.

Türbənin inşaat texnikasına görə, Elxanilər dövründə - XIV əsrdə tikildiyi hesab edilir.

## "Qarabağ – mədəniyyətimizin beşiyi": "Başıkəsik günbəz" (sərdabə)

Cəbrayıl rayonunun Dağtumas kəndində yerləşən XIII-XIV əsrlərə aid edilən günbəzin üstü açıq olduğuna görə "Başıkəsik günbəz" adlanırdı. İşğaldan qabaq tarixi abidənin bərpa edilməsinə baxmayaraq 1993-cü ildə Ermənistan silahlı qüvvələri tərəfindən günbəzin divarları bir neçə yerdən dağıdılıb.

"Qarabağ – mədəniyyətimizin beşiyi": Xanabert qalası

Xanabert qalası Kəlbəcər rayonunun Vəngli kəndində, Gəncəsər monastrının cənub tərəfində yerləşən tarix-memarlıq abidəsidir.

## "Qarabağ – mədəniyyətimizin beşiyi": Mamayı məscidi

XIX əsrdə Şuşanın Mamayı məhəlləsində tikilmiş eyniadlı məscidin memarı Kərbəlayi Səfixan Qarabaği olub.

Şuşanın dördbucaqlı adi yaşayış binalarının dam örtüyünü xatırladan Mamayı məscidinin dam örtüyündə azançı üçün "güldəstə" quraşdırılıb.

Mamayı məscidi sovet hakimiyyəti illərində poeziya evi kimi fəaliyyət göstərib.

## "Qarabağ – mədəniyyətimizin beşiyi": Hacı Ələkbər məscidi

Füzuli şəhərindəki Hacı Ələkbər məscidi memar Kərbəlayi Səfixanın ilkin işlərindəndir. Məscidin giriş qapısı üzərindəki daş kitabədə "Memar Kərbəlayi Səfixan Qarabağinin işidir" – sözləri yazılıb. Kitabədə məscidin tikilmə tarixi də – hicri tarixi ilə 1307-ci il göstərilir. Bu tarixi miladi təqviminə çevirəndə 1889-1890-cı illərə uyğun gəlir.

1993-cü ildə Füzuli rayonunun Ermənistan tərəfindən işğalından sonra Hacı Ələkbər məscidi yararsız hala düşüb.

***

Şükürlər olsun ki, artıq Qarabağ torpaqları kimi oradakı abidələrimiz də düşmənin işğalından azad edilib. Təbii ki, dağılmış, viran qoyulmuş, erməniləşdirilməyə cəhd edilmiş bütün tarix-memarlıq nümunələrimiz bərpa olunacaq, öz əvvəlki görkəmlərinə qaytarılacaq. Çünki onları bizim babalarımız yaradıb, bu abidələrin hər biri Azərbaycan xalqının qədim tarixinin, müdrikliyinin, böyüklüyünün, tolerantlığının simvoludur. Nəhayət, bütün dünya anlayacaq ki, belə zənginliyi yalnız ruhu və mənəviyyatı zəngin olan Azərbaycan xalqı yarada bilər.


Hacı Ələkbər məscidi

### Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin Bəyanatı

*Cari il 18 oktyabr tarixində rəşadətli Azərbaycan Ordusu 1993-cü ildə Ermənistan Respublikasının silahlı qüvvələri tərəfindən işğal edilmiş Cəbrayıl rayonunun ərazisində yerləşən dünya əhəmiyyətli tarix-memarlıq abidəsi olan Xudafərin körpülərini işğaldan azad etmişdir. Xudafərin körpülərinin üzərində 27 ildən sonra yenidən Azərbaycan Respublikasının üçrəngli bayrağı ucaldılmışdır.*

*Tikilmə tarixinə görə dövrünün möhtəşəm mühəndis qurğularından olan Xudafərin körpüləri Azərbaycan Respublikası ilə İran İslam Respublikasının dövlət sərhəddində yerləşən möhtəşəm tarixi abidədir.*

*Xudafərin körpüləri Araz çayının şimal və cənub sahillərini birləşdirir. Tarixi İpək yolunun üzərində yerləşən 11 tağlı körpü (inv. 12) XI-XII əsrlərdə, 15 tağlı körpü (inv. 13) isə XIII əsrdə inşa olunmuşdur. Azərbaycan memarlığının unikal abidələrindən olan Xudafərin körpüləri Yaxın və Orta Şərq regionunun ən əzəmətli, ən məşhur körpülərindən hesab olunur. Xudafərin körpüləri Böyük İpək Yolunun inkişafında mühüm rol oynamış və hərbi-strateji cəhətdən də müstəsna əhəmiyyətə malik olmuşdur.*

*15 aşırımlı körpünün antik dövrdə inşa edilmiş digər bir körpünün dayaqları üzərində tikildiyi ehtimal edilir. Coğrafi mövqeyinin əlverişli olması, yəni sahillərinin sal qayalarla əhatələnməsi burada körpünün tikilməsinə şərait yaratmışdır. Körpünün tağları bişmiş kərpicdən yığılsa da, doldurucu kimi çay daşından istifadə edilmişdir. 15 aşırımlı körpüdən 750 metr aralıda yerləşən 11 aşırımlı körpünün tikinti materialı kimi yonulmuş sal qaya daşlarından istifadə edilmişdir.*

*1993-cü ildə Cəbrayıl rayonu Ermənistan Respublikası silahlı qüvvələri tərəfindən işğal edildikdən sonra Xudafərin körpüləri dağıntılara məruz qalmışdır. Bu da bir daha Ermənistan Respublikası tərəfindən "Silahlı münaqişə zamanı mədəni sərvətləri qorunması haqqında" UNESCO-nun 1954-cü il Haaqa Konvensiyası, "Dünya mədəni və təbii irsinin mühafizəsi haqqında" UNESCO-nun 1972-ci il Konvensiyası, "Arxeoloji irsin mühafizəsi haqqında" 1992-ci il Avropa Konvensiyası və digər beynəlxalq hüquq normalarının kobud şəkildə pozulmasının, bu ölkənin təcavüzkar siyasətini davam etdirməsinin göstəricisidir.*

*Əminik ki, qısa zamanda rəşadətli Azərbaycan Ordusu işğal altında olan bütün torpaqlarımızı azad edəcək və 30 ilə yaxın bir müddətdə dağıntılara məruz qalmış yurd yerlərimiz və bütün tarix-mədəniyyət abidələrimiz dövlətimizin bu sahədə həyata keçirdiyi fəaliyyətə uyğun şəkildə bərpa edilib yenidən xalqımıza qaytarılacaqdır.*

*Müstəsna universal dəyəri, təkrarolunmaz landşaftı, yüksək memarlıq-mühəndis həlli, eləcə də iki ölkə ərazisində yerləşdiyini nəzərə alaraq Xudafərin körpülərinin UNESCO-nun Dünya Mədəni İrs Siyahısına salınması məqsədilə Azərbaycan Respublikası İran İslam Respublikası ilə birgə tədbirlərin həyata keçirilməsini nəzərdə tutur.* ❖

# "Xristian irsimizi tanıyaq"

Azərbaycana qarşı əsassız ərazi iddiaları irəli sürən erməni millətçiləri işğalçılıq əməllərinə haqq qazandırmaq məqsədilə Qafqaz Albaniyasının xristian kilsəsinə aid bütün kilsə, məbəd və monastrları erməni abidələri kimi tanıtmağa cəhd göstərirlər. Lakin tarixi faktlar sübut edir ki, Azərbaycandakı bütün alban xristian abidələri bizim xalqımızın mədəni irsinə aiddir.

Çoxsaylı yazılı tarixi mənbələrin məlumatına görə, Qafqaz Albaniyası dövlətinin ərazisi eramızın əvvəllərindən VIII əsrin əvvəlinədək cənubda Araz çayından şimali Qafqazadək, şərqdə Xəzər dənizinin qərb sahilindən Göyçə gölündən qərbdə yerləşən torpaqlaradək geniş bir sahəni əhatə edib. Bu yerlərdə qədim zamanlarda maldarlıq, əkinçilik və sənətkarlıqla məşğul olan müxtəlif dilli tayfalar yaşayıb. İçərilərində saklar, qarqarlar, quzlar, kanqarlar, hunlar, şamaklar, türklər, muğlar, icmaxilər, suranlar, şirvanlar və digər türkdilli tayfalar üstünlük təşkil edib. Eramızdan əvvəl V əsrdə yaşamış antik müəllif Heredot yazır ki, skiflər - türkdilli tayfalar midiyalılarla müharibədə qələbə çaldıqdan sonra Qafqaz ərazisində dövlət yaradıblar. Skif çarlığı kimi tanınmış bu dövlətin qədim Albaniya dövləti olduğu güman edilir.

Cənubi Qafqazın ərəblər tərəfindən işğalı dövründə, VIII əsrin əvvəllərində bu dövlət dağılsa da onun varlığını sübut edən bir çox abidələr günümüzə qədər gəlib çatıb. Hazırda Azərbaycan Respublikası ərazisində Qafqaz Albaniyasının zəngin memarlıq irsinə aid xeyli məbəd, kilsə və monastrlar var və bu abidələrə demək olar ki, ölkəmizin hər qarışında rast gəlmək mümkündür.

## Ölkəmizdə bütün dinlərin nümayəndələri həmişə mehriban yaşayıblar

30 ilə yaxın bir müddətdə erməni qəsbkarlarının işğalına məruz qalan Qarabağ torpaqlarında da xristian irsi nümunələri çoxdur. Erməni xaçpərəstliyi ilə yaxından-uzaqdan heç bir əlaqəsi olmayan bu abidələrimiz xəstə təfəkkürlə yaşayan toplum tərəfindən özününküləşdirilməyə məruz qalıb. Hər kəsi özləri kimi barbar sayan ermənilər torpaqlarımız işğaldan azad olunduqdan sonra bütün dünyada təbliğat aparmağa başlayıblar ki, guya onlara məxsus bu dini abidələri Azərbaycan məhv edəcək. Lakin ərazilərimizdə xristian dini mirasının qorunması hər zaman təmin edilib. Ümumiyyətlə, multikultural və çoxkonfessiyalı ölkə olan Azərbaycanda bütün xalqlar və dinlərin nümayəndələri əsrlərdir dinc yanaşı yaşayırlar. Ölkəmizdə dini mənsubiyyətinə görə heç kimə qarşı ayrı-seçkilik edilmir, bütün millətlərin nümayəndələrinə həmişə eyni münasibət sərgilənir. Bu baxımdan çoxsaylı xristian icması da cəmiyyətimizin ayrılmaz və fəal hissəsidir, onların abidələri və ibadət yerləri, kilsələr dövlətimiz tərəfindən tam mühafizə olunur və mütəmadi bərpa edilir.


Kürmük məbədi

Bunun sübutu olaraq son 20 ildə sözügedən istiqamətdə həyata keçirilən işlərə nəzər salmaq kifayətdir.

Rus Pravoslav Baş Kafedral Kilsəsi ("Müqəddəs Mürdaşıyan Zənənlər" pravoslav kafedral kilsəsi), "Xilaskar" Yevangelik-lüteran kilsəsi, Gəncədəki Aleksandr Nevski Rus Pravoslav Kilsəsi dövlət tərəfindən təmir edilib, Bakı və Azərbaycan Yeparxiyasının Pravoslav Dini-Mədəniyyət Mərkəzi inşa edilib. Belə ki, Qəbələdəki Çotari alban-udi və Bakıdakı Pravoslav kilsələrinin təmiri, Bakıdakı Müqəddəs Məryəm kilsəsinin inşası Heydər Əliyev Fondunun "Tolerantlığın ünvanı - Azərbaycan" layihəsi çərçivəsində reallaşdırılıb. 2020-ci ildə layihə çərçivəsində Qəbələnin Nic qəsəbəsindəki Müqəddəs Məryəm Ana Alban kilsəsi Heydər Əliyev Fondu tərəfindən əsaslı şəkildə bərpa edilib. Bakı şəhərinin mərkəzində Azərbaycan dövləti tərəfindən Erməni Kilsəsi bərpa edilib və insanların sərbəst istifadəsinə verilib.

Təkcə ölkə daxilində deyil, dünya miqyasında da xristian irsinin qorunmasına töhfələrimiz var. Azərbaycan dünyanın müxtəlif ölkələrində yerləşən kilsələrin, katakombaların və digər xristian abidələrinin təmir-bərpasında yaxından iştirak edib.

## "Xristian irsimizi tanıyaq" layihəsinə start

Azərbaycan xalqına məxsus xristian irsinin tanıdılması məqsədilə Mədəniyyət Nazirliyi tərəfindən yeni bir layihənin icrasına başlanılıb. "Xristian irsimizi tanıyaq" adlı layihə çərçivəsində Azərbaycan ərazisində xristian dininə aid və dövlət tərəfindən qorunan məbədlər, kilsələr və ibadətgahlara dair qısa videoçarxlar təqdim olunur.

Nazirlikdən verilən məlumatda bildirilir ki, Azərbaycanda xristianlıq hələ İsa Məsihin həvariləri dövründə - eramızın I-II əsrlərində yayılmağa başlayıb. Bu fəaliyyət xristianlığı yaymaq məqsədilə qədim Azərbaycan dövləti olan Qafqaz Albaniyasına gələn həvarilər Varfolomey və Faddeyin, eləcə də Faddeyin yetirmələri olan Yelisey və Marın adları ilə bağlıdır. Həmin dövrdə indiki Şəki rayonunun Kiş kəndi ərazisində "Şərq kilsələrinin anası" kimi məşhurlaşan Qafqazın ilk xristian

məbədinin əsası qoyulub. Daha sonra Qafqaz Albaniyasının digər yerlərində də xristian icmaları meydana gəlib, beləliklə, həvari mənşəli Alban kilsəsi təşəkkül tapıb.

"Xristian irsimizi tanıyaq" layihəsi çərçivəsində artıq xristian irsimizə aid bir neçə abidə haqqında videoçarx hazırlanaraq təqdim olunub. İlk videoçarx Şəki rayonunun Kiş kəndi ərazisində yerləşən Kiş Alban məbədindən bəhs edir.

## "Xristian irsimizi tanıyaq": Kiş alban məbədi

Şəki rayonunun Kiş kəndi ərazisində yerləşən Kiş Alban xristian məbədi Qafqazda, eləcə də bütün xristian dünyasında ən qədim kilsələrdəndir. Moisey Kalankatlunun "Alban ölkəsinin tarixi" əsərinə görə xristianlığı təbliğ etmək üçün Albaniyaya göndərilmiş Müqəddəs Yelisey "Giş" adlı kəndə gedərək orada kilsə tikib. Həmin səbəbdən də indi Şəkinin Kiş kəndindəki kilsə "Müqəddəs Yelisey kilsəsi" adı ilə tanınmaqdadır. 2000-ci illərdə Azərbaycan və Norveç tədqiqatçı-arxeoloqları tərəfindən aparılmış arxeoloji və elmi-tədqiqat işləri əsasında Kiş "Müqəddəs Yelisey" Kilsəsi memarlıq, arxeologiya və tarixi baxımdan tədqiq edilib, restavrasiya işləri həyata keçirilib, ərazinin mədəni qatları müəyyən edilib. Arxeoloji qazıntılar nəticəsində məbədin giriş qapısının altında qədim bünövrənin qalıqları aşkar olunub ki, onun da üzərində I-II əsrlərdə Kiş məbədi ucaldılıb. Kiş məbədi sadə təkzallı bazilikadan günbəzli memarlığa qədər 5 tikinti mərhələsi keçib. Adi təkz aldan ibarət kilsə özündə ilkin və sonrakı tikililərin maraqlı detallarını saxlayır.


Kiş alban məbədi

## "Xristian irsimizi tanıyaq": Çotari Alban-Udi kilsəsi

Qəbələ rayonunun Nic qəsəbəsində yerləşən Çotari Alban-Udi kilsəsi yerli sakinlərin vəsaiti hesabına 1723-cü ildə inşa edilib. Kilsənin adı qəsəbədəki Çotari məhəlləsinin adından götürülüb.

Sovet hakimiyyəti illərində fındıq anbarı kimi fəaliyyət göstərmiş kilsədə 2003-cü ildə əsaslı bərpa və yenidənqurma işlərinə başlanılıb, 2006-cı ildə dindarların istifadəsinə verilib.

## "Xristian irsimizi tanıyaq": Kürmük məbədi

Kürmük məbədi Azərbaycanın Qax rayonu ərazisində vaxtilə mövcud olmuş qədim Alban məbədinin (I-III əsrlərdə) qalıqları üzərində XIX əsrdə inşa edilib. Ərazidə aparılan arxeoloji qazıntılar zamanı müəyyən olunub ki, kilsənin alt hissəsində qədim məbədin qalıqları var.

2006-cı ilin sentyabrında məbədin cənub ərazisində aparılan arxeoloji qazıntılar zamanı 4 dəfə mərhələli şəkildə müxtəlif vaxtlarda yenidənqurma-bərpa işlərinə məruz qalması məlum olub.

## "Xristian irsimizi tanıyaq": Dairəvi Alban məbədi

V-VI əsrlərə aid Dairəvi Alban məbədi - Şəki şəhərindəki Nuxa qalasında yerləşən ölkə əhəmiyyətli memarlıq abidəsidir. Hazırda bu tikilinin içində Şəki Xalq Tətbiqi Sənət Muzeyi yerləşir.



Cotari alban kilsəsi

***

Azərbaycanın xristian irsi çox zəngindir. Ölkəmizdə yüzlərlə bu qəbildən olan abidə mövcuddur və Mədəniyyət Nazirliyinin layihəsi çərçivəsində onlar barədə videoçarxlar hazırlanacaq.

Onu da vurğulayaq ki, işğaldan azad edilmiş ərazilərimizdə də xristian dini mirası və abidələrinin mənşəyindən asılı olmayaraq, yüksək səviyyədə qorunacağı, bərpa ediləcəyi və istifadəyə veriləcəyi nəzərdə tutulur.

**Fəxriyyə Abdullayeva**